**ƏLİZADƏ ZİNYƏT ƏLİHEYDƏR QIZI**
**(1922 –1998)**
**Dilçi**

26 dekabr 1922-ci ildə anadan olmuşdur. 1941-ci ildə BDU-nun Filologiya fakültəsinə daxil olmuş, 1951-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. Həmin ildən BDU-da müəllimlik fəaliyyətinə başlamışdır. 1963-cü ildə namizədlik, 1981-ci ildə doktorluq dissertasiyasını müdafiə etmiş, 1985-ci ildə professor elmi adı almışdır.

150-dən artıq elmi məqalənin və 4 kitabın müəllifidir. “Müasir Azərbaycan dilində modal sözlər”, “Azərbaycan atalar sözləri və zərb məsəllərinin leksik-semantik xüsusiyyətləri”, “Azərbaycan atalar sözlərinin həyatı” adlı monoqrafiyaları çap olunmuşdur.

Türkiyədə, Rusiyada, Özbəkistanda, Qazaxıstanda, Qırğızıstanda keçirilmiş türkoloji qurultaylarda, elmi konfranslarda fəal iştirak etmişdir. Rəhbərliyi ilə bir neçə namizədlik dissertasiyası müdafiə olunmuşdur.

Əməkdar elm xadimi adına layiq görülmüş  və “Əmək veteranı” medalı ilə təltif olunmuşdur.